TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
______________ E.M. Ağayev
"13" dekabr 2013-cü il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**Bu dərman preparatının istifadəsindən əvvəl bu içlik vərəqəni diqqətlə oxuyun.**
Bu içlik vərəqəni özünüzdə saxlayın. Ola bilər ki, onu yenidən oxumağınız lazım gələ bilər. Həkiminizdən və ya əczaçınızdan əlavə məlumat və ya məsləhət ala bilərsiniz.

**TONZİLOTREN** tabletlər
TONSILOTREN

**Tərkibi**
*Təsiredici maddələr:* 1 tabletin (250 mq) tərkibində 12,5 mq *Atropinum sulfuricum* (atropin-sulfat) *trit.* D5, 10 mq *Hepar sulfuris* (hepar sulfur) *trit.* D3, 50 mq *Kalium bichromicum* (kalium-bixromat) *trit.* D4, 5 mq *Silicea* (silisium 4-oksid) trit. D2, 25 mq *Mercurius bijodatus* (civə 2-yodid) *trit.* D8 vardır.
*Köməkçi maddələr:* laktoza monohidrat, saxaroza, maqnezium-stearat.

**Farmakoterapevtik qrupu**
Homeopatik dərman vasitəsi

**İstifadəsinə göstərişlər**
Kəskin və xroniki tonzillit, badamcıq vəzisinin böyüməsi; badamcıq vəzisinin cərrahi yolla kənar edilməsindən sonra sağalmanı sürətləndirmək üçün.

**Əks göstərişlər**
Xroma və ya digər inqrediyentlərdən hər hansı birinə qarşı məlum yüksək həssaslıq zamanı preparatı təyin etmək olmaz.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Digər dərman vasitələri ilə qarşılıqlı təsiri məlum deyil.
Homeopatik preparatlarla müalicə digər dərman vasitələrinin istifadəsini istisna etmir.

**Xüsusi ehtiyatlılıq və xüsusi ehtiyat tədbirləri**
Əgər həkiminiz Sizdə hər hansı şəkərə qarşı dözümsüzlüyün olmasını söyləmişdirsə, o zaman Tonzilotreni istifadə etməzdən əvvəl onunla məsləhətləşin.

Bütün digər əczaçılıq preparatları kimi, Tonzilotren də hamiləlik və laktasiya dövründə yalnız həkimlə məsləhətləşdikdən sonra istifadə oluna bilər.
3 yaşa qədər uşaqların və qalxanabənzər vəzinin funksional pozğunluğu olan xəstələrin müalicəsi üçün Tonzilotren yalnız həkimlə məsləhətləşdikdən sonra istifadə oluna bilər.

**İstifadə qaydası və dozası**
Digər göstərişlər olmazsa Tonzilotren aşağıdakı kimi istifadə olunur:
xəstəliyin kəskin gedişi zamanı: 3 yaşdan 12 yaşa qədər uşaqlara yaxşılaşma baş verənə qədər ilk 1-2 gün ərzində hər 2 saatdan bir 1 tablet verilir (lakin, gündə 8 tabletdən çox olmayaraq); bundan sonra onlara gündə 3 dəfə 1 tablet verilir; böyüklərə və 12 yaşdan böyük uşaqlara yaxşılaşma baş verənə qədər ilk 1-2 gün ərzində hər saatdan bir 1 tablet verilir (gündə 12 tabletdən çox olmamaqla). Bundan sonra onlara gündə 3 dəfə 1-2 tablet verilir.

Kəskin vəziyyət saxlanılarsa və ya pisləşmə baş verərsə, preparatın qəbulunu dayandırmaq və müaliconi dayandırdıqdan sonra 2 gündən gec olmayaraq həkimlə məsləhətləşmək lazımdır.

Xroniki tonzillit və badancığın böyüməsi zamanı 3 yaşdan 12 yaşa qədər uşaqlara gündə 3 dəfə 1 tablet təyin olunur, böyüklərə və 12 yaşdan böyük uşaqlara isə gündə 3 dəfə 1-2 tablet təyin olunur. Müalicəni 4-6 həftə davam etdirmək tövsiyə edilir.

Xroniki residivləşən tonzillit zamanı 1 il müddətində bir neçə müalicə siklinin həyata keçirilməsi (həkimlə məsləhətləşdikdən sonra) məqsədəuyğun hesab edilir.

Tabletləri yeməkdən yarım saat əvvəl və ya yarım saat sonra qəbul etmək və onları tam sorulana qədər ağızda saxlamaq lazımdır. 3 yaşa qədər uşaqların müalicəsi zamanı tabletləri xırdalamaq olar.

**Doza həddinin aşılması**
Tonzilotren preparatının doza həddinin aşılmasının zərərli təsirləri məlum deyildir.

**Əlavə təsirləri**
Ayrı-ayrı hallarda yüksək həssaslıq reaksiyaları, məsələn, dəridə səpgi baş verə bilər. Belə hallarda preparatın qəbulunu dayandırmaq və həkimlə məsləhətləşmək lazımdır.
Tonzilotren preparatının qəbulundan sonra ağızsuyu ifrazı güclənərsə, dozanı azaltmaq və ya preparatın qəbulunu dayandırmaq lazımdır.

Homeopatik dərman vasitələrinin qəbulu zamanı xəstəliyin mövcud simptomlarının müvəqqəti güclənməsi mümkündür (ilkin pisləşmə); bu halda preparatın qəbulunu dayandırmaq və həkimlə məsləhətləşmək lazımdır.

**Buraxılış forması**
20 tablet, blisterdə. 3 blister (60 tablet) içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
15-25°C temperaturda, orijinal qablaşdırmada və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
5 il.
Yararlılıq müddəti qablaşdırılmanın və etiketin üzərində göstərilmişdir.

Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
Doktor Vilmar Şvabe GmbH & Ko. KG, Almaniya

Doyçe Homeopati-Yunion
DHU-Arsnaymittel QmbH & Ko. KQ
Almaniya, 76227 Karlsrue,
Ottoştrasse 24
Tel. +49 (721) 40 93 236

(Deutsche Homöopathie-Union
DHU-Arzneimittel GmbH & Co. KG
Germany, Karlsruhe 76 227)
Ottostrasse 24
Tel. +49 (721) 40 93 236